# “AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXS

**(VÖEN: 1403750111)**

**31 dekabr 2021-ci il tarixinə**

# MALİYYƏ HESABATI

AZEL-AUDİT

Dilarə Əliyeva Küçəsi 235A/5
AZ1010 Bakı- Azərbaycan
Tel:(+99412)599 01 11 Pbx
GSM(99450)255 94 11
E-mail: elza.suleymanova@azelaudit.az

# AUDİTİN APARILMASINA DAİR MƏKTUB-ÖHDƏLİK

**25 iyul 2022-ci il** **Bakı şəhəri**

"AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXSİN baş direktorunun müavini - baş direktorun vəzifəsini müvəqqəti icra edən

**Hörmətli:** Əliyev Rövşən Bafa oğlu

**Sizin** "AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXSİN 01.01.2021-ci il tarixdən 31 dekabr 2021-ci il tarixinə olan balans, gəlirlər və zərərlər hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditinin aparılması haqqında təklifinizi qəbul edərək bu Məktub-öhdəliklə təsdiq edirik.

Beynəlxalq Maliyyə Hesabatı Standartlarına («BMHS») əsasən hazırlanmış 01.01.2021-ci il tarixdən 31 dekabr 2021-ci il dövrü üzrə mühasibat balansı, maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat, balansa əlavələr, mühasibat uçotu registrləri və ayrı-ayrı ilkin sənədlər yoxlanacaqdır.

Bizim tərəfimizdən audit Beynəlxalq Audit Standartlarına və Azərbaycan Respublikasının qanunvericilik aktlarına əsasən aparılacaqdır.

Auditin məqsədi 01.01.2021-ci il tarixdən 31 dekabr 2021-ci il dövrü üzrə "AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXSİN balans, gəlirlər və zərərlər hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə tətbiq olunan əhəmiyyətli uçot siyasətinin dürüstlüyü haqqında auditorun fikrini ifadə edən rəy verməkdən ibarətdir.

Biz öz nəticələrimizi əsaslandırmaq üçün sizin təşkilatın işçilərinin köməyinə ümid edərək, daxili nəzarət vəziyyətinin, uçot məlumatlarının yetərliyi və dürüstlüyünün yoxlanılmasının bir sıra prosedurlarından və testlərindən istifadə edəcəyik.

Audit testlərinin seçilmə və digər özünə məxsus xüsusiyyətlərini, auditlə əhatə olunacaq sənədlərin həmçinin böyük olmasını nəzərə alaraq, ayrı-ayrı qeyri-müəyyənlik və səhvlərin aşkar edilməməsi riski mövcuddur. Həmin riskin minimuma endirilməsi üçün mümkün tədbirlər görəcəyik, lakin nəticənin tam dəqiqliyinə zəmanət verə bilmərik. Siz mühasibat uçotu və hesabatların qəsdən təhrif edilməsi faktlarının aşkar edilməsi haqqında bizi yazılı hesabatımızla məlumatlandıracaqsınız.

Bundan başqa, Sizin tapşırığınıza və qarşılıqlı razılaşmaya əsasən əlavə xidmətlər göstərməyə hazırıq.

Biz auditin aparılmasına dair müqavilənin şərtlərinə və "Auditor Xidməti Haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən göstərdiyimiz xidmətlərə görə məsuliyyət daşıyacağıq.

Biz sizin təşkilatın kommersiya sirrinə riayət edilməsinə dair öhdəliyi öz üzərimizə götürürük.

Biz "AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXSİN rəhbərliyindən xahiş edirik ki, audit üçün təqdim edilən bütün məlumatların tam və dürüst olmasını rəsmi təsdiq etsin.

AZEL-AUDİT

Dilarə Əliyeva Küçəsi 235A/5
AZ1010 Bakı- Azərbaycan
Tel:(+99412)599 01 11 Pbx
GSM(99450)255 94 11
E-mail: elza.suleymanova@azelaudit.az

Sizin işçilərlə hərtərəfli əməkdaşlığa ümid edərək, inanırıq ki, auditin tam aparılması üçün zəruri olan mühasibat sənədləri və digər məlumatlar bizim sərəncamımıza təqdim olunacaqdır. Ümid edirik ki, təşkilatınızın mühasibat hesabatlarının dürüstlüyü haqqında bizim fikrimizi dəyişmək məqsədilə hər hansı bir formada bizim əməkdaşlara heç bir təzyiq göstərilməyəcəkdir.

Qəbul edilmiş audit normalarına əsasən həmin şərtin pozulması auditin aparılmasına dair müqavilənin vaxtından əvvəl dayandırılması üçün əsasdır.

Göstərilən xidmətlərin dəyəri **"Azel-Audit" Məhdud Məsuliyyətli Cəmiyyəti** tərəfindən tətbiq ediləcək və auditin aparılması üçün tələb olunan müddətdən asılı olaraq müəyyən edilir.

Ayrı-ayrı işlərin dəyəri auditorların tələb olunan ixtisas səviyyəsinə və iş təcrübəsinə, məsuliyyət dərəcəsinə müvafiq olaraq dəyişə bilər. Hesablaşmanın həyata keçirilməsi qaydası və müddəti auditin aparılmasına dair müqavilə ilə müəyyən ediləcəkdir.

Xahiş edirik ki, Sizə təqdim olunan mühasibat hesabatlarının dürüstlüyünün auditinə razılıq haqqında məktub-öhdəliyin surətini imza edib, onun məzmununa dair irad və təkliflərinizi bizə göndərəsiniz.

**"Azel-Audit" Məhdud Məsuliyyətli Cəmiyyətinin**
direktoru: Süleymanova Elzadə

Mühasibat hesabatlarının dürüstlüyünün yoxlanılması ilə bağlı auditorun şərtləri ilə razıyam:

**"AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXSİN**

baş direktorunun müavini - baş direktorun
vəzifəsini müvəqqəti icra edən : Əliyev Rövşən

AZEL-AUDİT

Dilarə Əliyeva Küçəsi 235A/5
AZ1010 Bakı- Azərbaycan
Tel:(+99412)599 01 11 Pbx
GSM(99450)255 94 11
E-mail: elza.suleymanova@azelaudit.az

# TÖVSİYƏ MƏKTUBU

**Bakı ş.** **29 avqust 2022 - ci il**

**"AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXSİN baş direktorunun müavini - baş direktorun vəzifəsini müvəqqəti icra edən**

**Hörmətli, Rövşən müəllim**

Sizin tərəfinizdən təqdim edilmiş "AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXSİN 2021-ci ilə dair balans, gəlirlər və zərərlər hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditi tərəfimizdən aparıldı və maliyyə hesabatlarının ilkin mühasibat sənədlərinə (o cümlədən ofis proqramına yığılmış məlumatlara) uyğunluğu müəyyən edildi.

Nəzərinizə çatdırırıq ki, yoxlama zamanı cəmiyyətin maliyyə - təsərrüfat fəaliyyətində aşağıdakı nöqsan və çatışmazlıqlar aşkar edildi:

- 2020-ci ildə Azərbaycan Respublikasının prezidentinin sərancamına əsasən, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ləğv edilərək, qurumun texniki tənzimləmə, standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və keyfiyyətin idarə edilməsi sahəsində səlahiyyətləri Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə verilmişdir. Lakin, "AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXSİN 14 aprel 2017-ci ildə təsdiqlənmiş nizamnaməsində dəyişikliklər nəzərə alınaraq, yenidən təsdiqlənməsi həyata keçirilməmişdir.

- rəhbərlik etdiyiniz cəmiyyətdə "Daxili audit haqqında" 22 may 2007-ci il tarixli 332-IIIQ nömrəli Azərbaycan Respublikası qanunun tələblərinə uyğun olaraq daxili audit (nəzarət) sistemi təşkil edilməmişdir. Qeyd olunan qanunun 2.1 bəndinə əsasən məcburi auditin obyekti olan təsərrüfat subyektlərində daxili audit (nəzarət) sistemi qurulmalıdır.

- "AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXSİN 2021-ci ildə Müşahidə Şurası və Təftiş komissiyası yaradılmamışdır.

"AZEL-AUDİT" MMC-nin

direktoru: Süleymanova Elzadə Süleyman qızı

AZEL-AUDİT

Dilarə Əliyeva Küçəsi 235A/5
AZ1010 Bakı- Azərbaycan
Tel:(+99412)599 01 11 Pbx
GSM(99450)255 94 11
E-mail: elza.suleymanova@azelaudit.az

**25 iyul 2022-ci il tarixli Müqavilə N 51 əsasən göstərilmiş auditor xidməti işlərinin təhvil-qəbul haqqında**

**A K T**

Bakı ş. 29 avqust 2022 ci il

Biz, aşağıda imza edənlər, İcraçı "AZEL-AUDİT" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Süleymanova Elzadə Süleyman qızı və Sifarişçi "AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXSİN baş direktorunun müavini - baş direktorun vəzifəsini müvəqqəti icra edən Əliyev Rövşən Bafa oğlu, bu aktı ona görə tərtib edirik ki, İcraçı tərəfindən auditor xidməti 25 iyul 2022-ci il tarixli Müqavilə N 51 –in şərtlərinə uyğun olaraq tam yerinə yetirilmişdir.

Görülmüş işlərin nəticəsinə görə sifarişçiyə aşağıdakılar verilir:

1. **29 avqust 2022-ci il tarixli Müstəqil auditor hesabatı.**

Təhvil verdi:
İcraçı:
"AZEL AUDİT" MMC-nin
direktoru
Süleymanova Elzadə
______________________
(imza)

Təhvil aldı:
Sifarişçi:
"AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU"
PUBLİK HÜQUQİ ŞƏXSİN
baş direktorunun müavini - baş direktorun vəzifəsini müvəqqəti icra edən :
Əliyev Rövşən
______________________
(imza)

Dilarə Əliyeva Küçəsi 235A/5
AZ1010 Bakı- Azərbaycan
Tel:(+99412)599 01 11 Pbx
GSM(99450)255 94 11
E-mail: elza.suleymanova@azelaudit.az

AZEL-AUDİT

**"AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXSİN (VÖEN: 1403750111) rəhbərlərinə:**

**Maliyyə hesabatlarının auditinə dair hesabat (Rəy):**

Biz, "AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXSİN 31 dekabr 2021-ci il tarixə tərtib edilən Maliyyə hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun hazırlanmasının düzgünlüyünü yoxladıq.

Hesab edirik ki, "AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXSİN başa çatan 31 dekabr 2021-ci il tarixə tərtib edilən Maliyyə hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz, auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları auditor rəyini əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti:

Rəhbərlik maliyyə hesabatlarının BMHS –na (Beynəlxalq maliyyə hesabatları standartları) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, məqsədli şəkildə və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda

AZEL-AUDİT

Dilarə Əliyeva Küçəsi 235A/5
AZ1010 Bakı- Azərbaycan
Tel:(+99412)599 01 11 Pbx
GSM(99450)255 94 11
E-mail: elza.suleymanova@azelaudit.az

fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, məqsədli şəkildə və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər məqsədli şəkildə və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**"Azel – Audit" MMC-nin**
direktoru və auditoru: **Süleymanova Elzadə Süleyman qızı**

**29 avqust 2022-ci il**

Bakı, Azərbaycan Respublikası

## Mündəricat


31 DEKABR 2021-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT ........ 3

Maliyyə Vəziyyəti Haqqında Hesabat ........ 4

Maliyyə Nəticələri Haqqında Hesabat ........ 5

Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat ........ 6

Kapitalda Dəyişikliklər Haqqında Hesabat ........ 7

1. Korporativ məlumat ........ 8
2. Təqdim etmənin əsasları ........ 8
3. Əhəmiyyətli uçot siyasətlərinin qısa məzmunu ........ 8
4. Seqment haqqında məlumat ........ 10
5. Gəlir ........ 10
6. Satışın maya dəyəri ........ 10
7. İnzibati xərclər ........ 10
8. Maliyyə xərcləri/gəlirləri ........ 11
9. Sair (fövqəladə) xərclər/(gəlirlər) ........ 11
10. Ehtiyatlar ........ 11
11. Pul vəsaitləri və onların ekvivalentləri ........ 11
12. Torpaq, tikili və avadanlıqlar və qeyri maddi aktivlər ........ 12
13. Qısamüddətli debitor borclar ........ 13
14. Sair qısamüddətli aktivlər ........ 14
15. Qısamüddətli kreditor borcları ........ 14
16. Uzun müddətli kreditor borclar ........ 14
17. Sair qısamüddətli öhdəliklər ........ 14
18. Mənfəət vergisi ........ 14
19. Pay üzrə mənfəət ........ 15
20. Maliyyə risklərinin idarə edilməsinin məqsədi ........ 15
21. Hesabat tarixindən sonra baş vermiş hadisələr ........ 15

## 31 DEKABR 2021-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT

Rəhbərlik **"AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXS**-in 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixə bitən il üzrə əməliyyat nəticələri, pul vəsaitlərinin hərəkəti və səhmdar kapitalında dəyişiklikləri düzgün əks etdirən maliyyə hesabatlarının, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq olaraq hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Mühasibat uçotu qaydalarının müvafiq şəkildə seçilməsi və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin **İnstitutun** maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün MHBS-nın xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə;
- **İnstitutun** fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- **İnstitut** daxilində sağlam və effektiv daxili nəzarət sisteminin yaradılması, tətbiqi və saxlanılmasına;
- **İnstitutun** əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə onun maliyyə hesabatlarının istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və **İnstitutun** maliyyə hesabatlarının MHBS-na uyğun gəldiyini təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılması;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq məcburi mühasibat uçotu qeydlərinin aparılmasına;
- **İnstitutun** aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə;
- Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına;

**İnstitutun** 31 dekabr 2021-ci il tarixinə bitən il üzrə maliyyə hesabatları rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

"AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU"
PUBLİK HÜQUQİ ŞƏXSİN baş direktorunun müavini - baş direktorun
vəzifəsini müvəqqəti icra edən: Əliyev Rövşən Bafa oğlu

Baş mühasib: Məmmədova Naciyə Kamandar qızı

## Maliyyə Vəziyyəti Haqqında Hesabat

| | Qeyd | 31 Dekabr 2021 | 31 Dekabr 2020 |
|---|---|---|---|
| | | *manat* | |
| **Aktivlər** | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Qeyri maddi aktivlər | 13 | 10 179 | 71 752 |
| Torpaq, tikili və avadanlıqlar (Əsas vəsaitlər) | 13 | 4 013 516 | 3 723 226 |
| İnvestisiyalar | | - | - |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **4 023 695** | **3 794 978** |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | 11 | 11 541 | - |
| Qısamüddətli debitor borcları | 14 | 155 488 | 45 489 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 870 360 | 582 420 |
| Kapitallaşdırma üçün aktivlər | | 238 201 | 242 036 |
| Sair qısamüddətli aktivlər | 15 | - | 92 105 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **1 275 590** | **962 049** |
| **CƏMİ AKTİVLƏR** | | **5 299 285** | **4 757 027** |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Ödənilmiş nominal (Nizamnamə) kapitalı | | 3 122 433 | 3 122 433 |
| Kapital ehtiyatları | | 1 586 255 | 1 389 291 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 472 212 | 238 445 |
| **CƏMİ KAPİTAL** | | **5 180 900** | **4 750 169** |
| **Öhdəliklər** | | | |
| *Uzunmüddətli öhdəliklər* | | | |
| Təxirəsalınmış vergi öhdəliyi | | - | - |
| Uzunamüddətli kreditor borcları | 17 | - | - |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **-** | **-** |
| *Qısamüddətli öhdəliklər* | | | |
| Qısamüdətli faiz xərcləri yaradan öhdəliklər | | - | - |
| Qısamüdətli qiymətləndirilmiş öhdəliklər | | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 18 | 77 420 | - |
| Qısamüddətli kreditor borcları | 16 | 1 190 | 6 850 |
| Sair qısamüddətli öhdəliklər | 18 | 39 775 | - |
| **CƏMİ QISAMÜDDƏTLI ÖHDƏLIKLƏR** | | **118 385** | **6 858** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **118 385** | **6 858** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **5 299 285** | **4 757 027** |

"AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU"
PUBLİK HÜQUQİ ŞƏXSİN baş direktorunun müavini - baş direktorun
vəzifəsini müvəqqəti icra edən: Əliyev Rövşən Bafa oğlu

Baş mühasib: Məmmədova Naciyə Kamandar qızı

**"AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXS -in 31 dekabr 2021-ci il tarixə Maliyyə Hesabatları**

## Maliyyə Nəticələri Haqqında Hesabat

| | Qeyd | 2021 | 2020 |
|---|---|---|---|
| | | | *manat* |
| Əsas əməliyyat gəlirləri | 6 | 2 917 465 | 2 079 458 |
| Satışın maya dəyəri | 7 | (3 038 015) | (2 050 705) |
| **Ümumi mənfəət** | | **(120 550)** | **28 753** |
| Sair əməliyyat gəlirləri | 6 | - | - |
| Sair əməliyyat xərcləri | 13 | - | - |
| Marketinq və kommersiya xərcləri | | - | - |
| İnzibati xərclər | 8 | (109 240) | (20 697) |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **(229 790)** | **8 056** |
| Maliyyə gəlirləri | 9 | 232 000 | 232 000 |
| Maliyyə xərcləri | 9 | - | - |
| Fövqaladə gəlirlər | 10 | - | - |
| Fövqaladə xərclər | 10 | - | - |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **2 210** | **240 056** |
| Mənfəət vergisi | 19 | (442) | (1 611) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 20 | **1 768** | **238 445** |
| Xitam verilmiş əməliyyatlar | | - | - |
| Hesabat dövrünə aid olmayan xalis mənfəətdən çıxılmalar | | - | - |
| Xalis mənfəətdən çıxılmalar | | - | - |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **1 768** | **238 445** |
| **Mənfəətdə iştirak payı:** | | | |
| - Təsisçilərin payı | | - | - |
| - 1 paya düşən mənfəət | | - | - |

"AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU"
PUBLİK HÜQUQİ ŞƏXSİN baş direktorunun müavini - baş direktorun vəzivəsini müfəqqəti icra edən: Əliyev Rövşən Bafa oğlu

Baş mühasib: Məmmədova Naciyə Kamandar qızı

## Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat

| | Qeyd | 2021 | 2020 |
|---|---|---|---|
| | | *manat* | |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti:** | | | |
| Vergitutmadan əvvəl mənfəət (xərclər) | | 2 210 | 240 056 |
| Mənfəət vergisi üzrə xərclər | | (442) | (1 611) |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | | |
| • Bina, qurğu və avadanlıqların amortizasiyası | 13 | 552 714 | 346 648 |
| • Qeyri maddi aktivlərin amortizasiyası | | 67 778 | 4 918 |
| • Bina, qurğu və avadanlıqların xaricolmasından mənfəət | | - | - |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | | |
| • Ehtiyatlar üzrə artma/azalma | | (11 542) | 37 847 |
| • Debitor borcları üzrə artma/azalma | | (109 999) | 89 842 |
| • Maliyyə aktivlər üzrə artma/azalma | | 3 835 | - |
| • Sair aktivlər üzrə artma/azalma | | 92 105 | (92 105) |
| • Əməliyyat kreditor borcları üzrə artma/azalma | | (5 668) | (82 920) |
| • Vergi və sosial sığorta öhdəlikləri üzrə artma/azalma | | 77 421 | - |
| • Uzunmüddətli kreditor borcları üzrə artma/azalma | | - | - |
| • Alınmış avanslarda artma/azalma | | - | - |
| • Sair kreditor borcları üzrə artma/azalma | | 39 775 | (127 916) |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **708 187** | **414 759** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti:** | | | |
| Əsas vəsaitlərin alınması | 13 | (843 004) | (28 678) |
| Qeyri-maddi aktivlərin alınması | | (6 205) | (9 161) |
| Əsas vəsaitlərin xaricolması üzrə qalıq dəyəri | 13 | - | - |
| İnvestisiya yönümlü əməliyyatlar | | - | - |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(141 022)** | **(37 839)** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti:** | | | |
| Borc ödənilməsi/ daxilolmalar | | - | - |
| Kapitalda pay sahiblərinə ödənilən dividendlər | | - | - |
| Kapital ehtiyyatlarından çıxılmalar | | 428 963 | - |
| Xalis mənfəətdən çıxılmalar | | - | - |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **287 941** | **-** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)** | | **287 941** | **376 920** |
| Valyuta fərqləri | | - | - |
| **1 Yanvar tarixinə pul vəsaitləri və pul vəsaitləri ekvivalentləri** | 12 | **582 420** | **205 500** |
| **31 Dekabr tarixinə pul vəsaitləri və pul vəsaitləri ekvivalentləri** | 12 | **870 361** | **582 420** |

"AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU"
PUBLİK HÜQUQİ ŞƏXSİN baş direktorunun müavini - baş direktorun vəzivəsini müvəqqəti icra edən: Əliyev Rövşən Bafa oğlu

Baş mühasib: Məmmədova Naciyə Kamandar qızı

**"AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXS -in 31 dekabr 2021-ci il tarixə Maliyyə Hesabatları**

Kapitalda Dəyişikliklər Haqqında Hesabat

*manat*

| | Qeyd | Nizam namə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Sair ehtiyatlar | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **01 yanvar 2021-ci il tarixə** | | **3 122 433** | **-** | **238 445** | **1 389 291** | **4 750 169** |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | - | - | - | - | - |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | - | - | 1 768 | 428 963 | 430 731 |
| Mülkiyyətçilərin kaptal qoyuluşları | | - | - | - | - | - |
| Mülkiyyətçilər arasında kaptalın bölüşdürülməsi (dividendlər) | | - | - | - | - | - |
| **31 dekabr 2021-ci il tarixə** | | **3 122 433** | **-** | **240 213** | **1 818 254** | **5 180 900** |

"AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU"
PUBLİK HÜQUQİ ŞƏXSİN baş direktorunun müavini - baş direktorun vəzifəsini müvəqqəti icra edən: Əliyev Rövşən Bafa oğlu

Baş mühasib: Məmmədova Naciyə Kamandar qızı

## 1. Korporativ məlumat

Hazırkı maliyyə hesabatları 31 dekabr 2021-ci ildə tamamlanan il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq **"AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXS**-i üçün tərtib edilmişdir.

**İnstitut** 17 aprel 2017-ci ildə Azərbaycan Respublikası tərəfindən "**AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXS** adı ilə dövlət müəssisəsi təsis edilmişdir.
**AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXS** AZ 1078, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov qardaşları, ev 124 ünvanında qeydiyyata alınmışdır.

**İnstitutun fəaliyyət istiqamətləri** ölçmələrin vəhdətinin təmin edilməsi sahəsində fundamental, tətbiqi, elmi, eksperimental işlərin aparılması, bu sahədə elmi-texniki fəaliyyətin aparılması, istiqamətləndirilmiş proqramların yaradılması və tətbiq edilməsindən ibarətdir.

31 dekabr 2021-ci il tarixində **İnstitutun** mülkiyyətinin pay sahibi Azərbaycan Respublikasıdır:

| Mülkiyyətçi | *2021-%* | *2020-%* |
|---|---|---|
| Azərbaycan Respublikası | 100 | 100 |
| Cəmi | 100,00 | 100,00 |

## 2. Təqdim etmənin əsasları

**İnstitut** mühasibat uçotunu Maliyyə hesabatlarının Beynəlxalq Standartlarına və Vergi qanunvericiliyinə əsasən aparır və beynəlxalq standartlara uyğun maliyyə hesabatlarını Azərbaycan manatı ilə hazırlayır. Təqdim edilən Maliyyə hesabatları ədalətli dəyərdə ölçülən satışı mümkün olan maliyyə aktivləri, törəmə maliyyə alətləri, torpaq və binalar və investisiya xüsusiyyətləri istisna olmaqla ilkin dəyər metoduna uyğun aparılan mühasibat qeydləri əsasında hazırlanmışdır.

**İnstitut** mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatı xərclərin xarakter təsnifatına əsaslanan elementlərinə uyğun olaraq təqdim edir. Cəmiyyət belə qəbul edir ki, bu tip təqdimetmə prinsipi maliyyə hesabatının oxucuları üçün daha ətraflı məlumat verir, belə ki, təsərrüfat nöqteyi nəzərdən əməliyyatların aparılmasının yollarını daha düzgün əks etdirən bir yanaşmadır. Maliyyə vəziyyəti haqqında hesabat isə maddələrin cari və uzunmüddətli hissələrə bölünməsi prinsipinə dayanan bir təqdimat formasıdır.

## 3. Əhəmiyyətli uçot siyasətlərinin qısa məzmunu

***Valyutaların yenidən hesablanması***

**İnstitutun** maliyyə hesabatları Azərbaycan Respublikası manatı (AZN) ilə göstərilmişdir. Azərbaycan manatı **AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXSİN** fəaliyyət göstərdiyi iqtisadi

mühitin əsas valyutası hesab edilir. Xarici valyuta ilə aparılan əməliyyatlar, aparılmış əməliyyatların tarixinə valyuta məzənnəsinə uyğun olaraq yerli valyutada əks etdirilir.

### *Torpaq, tikili və avadanıqlar*

Tikili və avadanlıqlar onların maya dəyəri, toplanmış amortizasiya məbləği və dəyərdən düşmə fərqi cıxılmaqla hesabatda öz əksini tapır. Maya dəyəri dedikdə tikili və avadanlıqların hissələrinin dəyişdirilməsinə çəkilən xərclər, uzunmüddəli tikinti müqavilələri zamanı çəkilən borclar üzrə məsrəflər (tanınma meyarlarına uyğun gələrsə) daxil olmaqla hesablanır. Eyniylə əsaslı təftişin aparılması zamanı yoxlamaya cəkilən məsrəflər, tanınma meyarlarına uyğun gəldikdə, tikili və avadanlıqların balans dəyərində əvəzləşdirmə kimi tanınır. Tikili və avadanlıqlara çəkilən bütün digər xərclər cari dövrün xərcləri kimi tanınaraq mənfəət və zərər hesabına silinir. Tikili və avadanlıqların istismardan çıxarılmasına çəkilən xərclərin cari diskontlaşdırılmış dəyəri üçün yaradılmış ehtiyat tanınma meyarlarına uyğun gələrsə müvafiq əsas vəsaitin dəyərinə aid edilir. Əsas vəsaitlərin istismardan çıxarılması ilə bağlı əlavə məlumat əldə etmək üçün ehtiyatlara istinad edilir.

Aktivlərin amortizasiyası azalan qalıq dəyəri metodu istifadə olunmaqla istismar müddəti boyunca aşağıdakı qaydada hesablanır:

- Binalar, tikintilər və qurğular - 7 faizədək;
- Maşın və avadanlıqlar - 20 faizədək;
- Nəqliyyat vasitələri - 25 faizədək;
- Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası üzrə - 20 faizədək;
- Sair əsas vəsaitlər - 20 faizədək

### *Nizamnamə kapitalı*

Nizamnamə payı kapital kimi təsnifləşdirilir. Cəmiyyətin nizamnamə kapitalı **3.122.432,60 (Üç milyon yüz iyirmi iki min dörd yüz otuz iki manat, 60 qəpik) manatdır**.

### *Ehtiyatlar*

Ehtiyatlar iki göstəricidən ən aşağı malik olan qiymət üzrə əks etdirilirlər:

- Maya dəyəri
- Xalis satış dəyəri

Ehtiyatların maya dəyəri birinci satınalmaların qiyməti üzrə (FİFO metodu) hesablanır. Hazır məhsulun dəyəri Azərbaycan Respublikasının Tarif Şurası tərəfindən müəyyən edilir.

### *Gəlirlərin uçotu*

Satışdan əldə edilən gəlirlər mal təqdim edilməsini təsdiq edən ilkin uçot sənədlərinə əsasən qeydə alınır. Gəlirlər hesablama metodu ilə qeydə alınır. Gəlir rəqəmləri əlavə dəyər vergisini çıxmaqla göstərilir.

### *Əmək haqqı xərcləri və müvafiq ayırmalar.*

Əmək haqları, məvaciblər, Dövlət Sosial Müdafiə Fonduna ayırmalar, məzuniyyət və digər müavinətlər üzrə illik ödənişlər, mükafatlar və digər imtiyazlar institutun işçiləri tərəfindən müvafiq xidmətlərin göstərildiyi ildə hesablanır.

## 4. Seqment haqqında məlumat

***Başlanğıc tarixi seqmenti – iqtisadi seqment***

Menecmentin dəqiq işləməsi üçün institutun **1 iqtisadi** seqmenti var:

Xidmət - (ölçmələrin vəhdətinini təmin edilməsi sahəsində fundamental, tətbiqi, elmi, eksperimental işlərin aparılması, bu sahədə elmi-texniki fəaliyyətin aparılması, istiqamətləndirilmiş proqramların yaradılması və tətbiq edilməsi. (100,00%);

***Coğrafi məlumat***

**İnstitutun** iqtisadi seqmenti müxtəlif coğrafi seqmentdə fəaliyyət göstərməkdir. **İnstitut** Azərbaycan Respublikasında qeydiyyatdan keçib. Əsas fəaliyyət sahəsi Azərbaycan Respublikasındadır (100,00 %).

## 5. Gəlir

Əsas əməliyyat gəlirləri aşağıdakılardan ibarətdir:

| | 2021 | 2020 |
|---|---|---|
| Xidmət (ölçmə işləri | 2 917 465 | 2 079 458 |
| Subsidiya | 232 000 | 232 000 |
| | **3 149 465** | **2 311 458** |

## 6. Satışın maya dəyəri

Satışın maya dəyəri aşağıdakılardan ibarətdir:

| | 2021 | 2020 |
|---|---|---|
| Əmək haqqı və ona bərabər tutulan xərclər | 1 666 697 | 1 199 373 |
| Sosial sığorta haqları | 374 276 | 267 222 |
| Xammal və materialların dəyəri | - | 30 664 |
| Amortizasiya ayırmaları | 502 063 | 215 366 |
| Kənar təşkilatın xərcləri (subpodrat) | 357 441 | 124 026 |
| Ezamiyyə xərcləri | 10 780 | 12 264 |
| Elektrik enejisi, qaz və su xərcləri | 64 099 | 49 972 |
| Yanacaq xərcləri | 42 091 | 29 261 |
| Təmir xərci | 20 569 | 39 176 |
| Gəlirdən çıxılmayan xərclər | - | - |
| Sair xərclər | - | 52 912 |
| | **3 038 015** | **2 020 236** |

## 7. İnzibati xərclər

İnzibati xərclər aşağıdakılardan ibarətdir:

| | 2021 | 2020 |
|---|---|---|
| Rabitə xərcləri | 15 376 | 13 627 |
| Sığorta üzrə xərclər | 2 624 | - |
| İcarə haqqı | - | - |
| Bank xidməti üzrə xərclər | 10 031 | 7 070 |
| Gəlirdən çıxılan vergilər | 32 955 | 30 469 |
| Mühafizə xərcləri | 48 254 | - |
| Qaz xərcləri | - | - |

| | | |
|---|---|---|
| Reklam xərcləri | - | - |
| Ümidsiz borclar | - | - |
| Digər xərclər | - | - |
| | 109 240 | 51 166 |

## 8. Maliyyə xərcləri/gəlirləri

Maliyyə xərcləri/gəlirləri aşağıdakılardan ibarətdir:

| | 2021 | 2020 |
|---|---|---|
| Faiz xərcləri(gəlirləri) | - | - |
| Bank xidməti üzrə xərclər | - | - |
| Maliyyələşmə ilə əlaqədar digər xərclər | - | - |
| Xarici valyuta məzənnə fərqi | - | - |
| | - | - |

## 9. Sair (fövqəladə) xərclər/(gəlirlər)

Sair (fövqaladə) xərclər/gəlirlər aşağıdakılardan ibarətdir:

| | 2021 | 2020 |
|---|---|---|
| Aktivlərin (əsas vəsaitlərin) xaric olması üzrə xərclər (zərərlər) | - | - |
| Aktivlərin qiymətdəndüşməsi üzrə xərclər (zərərlər) | - | - |
| Məzənnə fərqləri üzrə xərclər (zərərlər) | - | - |
| Ümidsiz öhdəlikl-in silinməsi və ehtiyat-ın yaradılması üzrə xərclər | - | - |
| | - | - |
| Aktivlərin (əsas vəsaitlərin) xaric olması üzrə gəlirlər | - | - |
| Məzənnə fərqləri üzrə xərclər gəlirlər | - | - |
| | - | - |

## 10. Ehtiyatlar

Ehtiyatlar aşağıdakılardan ibarətdir:

| | 2021 | 2020 |
|---|---|---|
| Material ehtiyatları | - | - |
| Mallar | - | - |
| Digər ehtiyatlar | 11 541 | - |
| Ehtiyatların dəyərinin azalmasına görə düzəlişlər | - | - |
| | **11 541** | - |

## 11. Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakılardan ibarətdir:

| | 2021 | 2020 |
|---|---|---|
| Kassa | - | - |
| Bank hesablarında olan pul vəsaitləri | 762 780 | 513 904 |
| ƏDV deposit hesabında olan pul vəsaitləri | 107 581 | 68 516 |
| | **870 361** | **582 420** |

| | | |
|---|---|---|
| Bank hesablarinda olan pul vəsaitlərindən: | | |
| • Milli valyutada bank hesabları | 713 465 | 567 995 |
| • Xarici valyutalarda bank hesabları | 49 315 | 14 425 |

## 12. Torpaq, tikili və avadanlıqlar və qeyri maddi aktivlər

Torpaq, tikili və avadanlıqlar ibarətdir:

| | Binalar, Tikili və qurğular | Maşın avadanlıqlar | Nəqliyyat vasitələri | Yüksək Texnologiyalar | Digər əsas vəsaitlər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **01.01.20 ilkin dəyər** | **3 503 968** | **3 798 248** | **589 475** | **73 453** | **208 076** | **8 173 220** |
| Yığılmış amortizasiya | (867 541) | (2 726 215) | (358 425) | (54 523) | (125 321) | (4 132 025) |
| **01.01.20 balans dəyəri** | **2 636 427** | **1 072 033** | **231 050** | **18 930** | **82 755** | **4 041 195** |
| Daxilolmalar | - | 1 746 | - | 905 | 26 027 | 28 678 |
| Xaricolmalar | - | - | - | - | - | - |
| Amortizasiya ayırmaları | (65 444) | (219 356) | (44 747) | (4 388) | (12 711) | (346 646) |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | - | - | - | - | - | - |
| Daxilolmalar üzrə amortizasiya | - | - | - | - | - | - |
| Yenidənqiymətləndirmə | - | - | - | - | - | - |
| Yenidənqiymətləndirmə | - | - | - | - | - | - |
| **01.01.20 ilkin dəyər** | **3 503 968** | **3 799 994** | **589 475** | **74 358** | **234 103** | **8 201 898** |
| Yığılmış amortizasiya | (932 985) | (2 945 571) | (403 172) | (58 911) | (138 032) | (4 478 671) |
| **01.01.21 balans dəyəri** | **2 570 983** | **854 423** | **186 303** | **15 447** | **96 071** | **3 723 227** |
| Daxilolmalar | 182 805 | 521 252 | 74 451 | 57 806 | 6 690 | 843 004 |
| Xaricolmalar | - | - | - | - | - | - |
| Amortizasiya ayırmaları | (202 516) | (275 148) | (44 708) | (3 089) | (27 253) | (552 714) |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | - | - | - | - | - | - |
| Daxilolmalar üzrə amortizasiya | - | - | - | - | - | - |
| Yenidənqiymətləndirmə | - | - | - | - | - | - |
| Yenidənqiymətləndirmə | - | - | - | - | - | - |
| **31.12.20 ilkin dəyər** | **3 686 773** | **4 321 246** | **663 926** | **132 164** | **240 793** | **9 044 902** |
| Yığılmış amortizasiya | (1 135 501) | (3 220 719) | (447 880) | (62 000) | (165 285) | (5 031 385) |
| **31.12.20 balans dəyəri** | **2 551 272** | **1 100 527** | **216 046** | **70 164** | **75 508** | **4 013 517** |

Qeyri maddi aktivlər əsasən müxtəlif proqramlardan ibarətdir:

| | İstifadə müddəti məlum olan Qeyri maddi aktivlər | İstifadə müddəti məlum olmayan Qeyri maddi aktivlər | Cəmi |
|---|---|---|---|
| **01.01.20 tarixə ilkin dəyər** | **-** | **127 032** | **127 032** |
| Yığılmış amortizasiya | - | (59 522) | **(59 522)** |
| **01.01.20 tarixə balans dəyəri** | **-** | **67 510** | **67 510** |
| Daxilolmalar | - | 9 161 | 9 161 |
| Xaricolmalar | - | - | - |
| Amortizasiya ayırmaları | - | (4 919) | (4 919) |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | - | - | - |
| Daxilolmalar üzrə amortizasiya | - | - | - |
| Yenidənqiymətləndirmə | - | - | - |
| Yenidənqiymətləndirmə | - | - | - |
| **01.01.21 tarixə ilkin dəyər** | **-** | **136 193** | **136 193** |
| Yığılmış amortizasiya | - | (64 441) | **(64 441)** |
| **01.01.21 tarixə balans dəyəri** | **-** | **71 752** | **71 752** |
| Daxilolmalar | - | 6 205 | 6 205 |
| Xaricolmalar | - | (93 009) | (93 009) |
| Amortizasiya ayırmaları | - | (1 131) | (1 131) |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | - | 26 362 | 26 362 |
| Daxilolmalar üzrə amortizasiya | - | - | - |
| Yenidənqiymətləndirmə | - | - | - |
| Yenidənqiymətləndirmə | - | - | - |
| **31.12.21 tarixə ilkin dəyər** | **-** | **49 389** | **49 389** |
| Yığılmış amortizasiya | - | (39 210) | **(39 210)** |
| **31.12.21 tarixə balans dəyəri** | **-** | **10 179** | **10 179** |

## 13. Qısamüddətli debitor borclar

Qısamüddətli debitor borcları aşağıdakılardan ibarətdir:

| | 2021 | 2020 |
|---|---|---|
| Təsisçilərin debitor borcları | - | - |
| İşçi heyəti üzrə debitor borcları | - | - |
| Sair debitor borcları | 155 488 | 45 489 |
| | **155 488** | **45 489** |

## 14. Sair qısamüddətli aktivlər

Digər qısamüddətli aktivlər aşağıdakı komponentlərdən ibarətdir:

| | 2021 | 2020 |
|---|---|---|
| Əvəzləşdirilən vergi (ƏDV) | - | - |
| Gələcək hesabat dövrünün xərcləri | - | 92 105 |
| Verilmiş qısamüddətli avanslar | - | - |
| Təhtəlhesab məbləğlər | - | - |
| Digər qısamüddətli aktivlər | - | - |
| | **-** | **92 105** |

## 15. Qısamüddətli kreditor borcları

Qısamüddətli kreditor borcları aşağıdakılardan ibarətdir:

| | 2021 | 2020 |
|---|---|---|
| Sair kreditor borclar | 1 190 | 6 859 |
| İşçi heyəti üzrə kreditor borcları | - | - |
| Alınmış qısamüddətli avanslar | 39 775 | - |
| | **40 965** | **6 859** |

## 16. Uzun müddətli kreditor borclar

Uzunmüddətli kreditor borcları aşağıdakılardan ibarətdir:

| | 2021 | 2020 |
|---|---|---|
| Təsisçilərə kreditor borcları | - | - |
| | **-** | **-** |

## 17. Sair qısamüddətli öhdəliklər

Sair qısamüddətli kreditor borcları aşağıdakılardan ibarətdir:

| | 2021 | 2020 |
|---|---|---|
| Təsisçilərin kreditor borclar | - | - |
| İşçi heyəti üzrə kreditor borcları | - | - |
| Gələcək dövrün gəlirləri | - | - |
| Vergi üzrə kreditor borcları | 77 421 | - |
| Sair qısamüddətli borclar | - | - |
| | **77 421** | **-** |

## 18. Mənfəət vergisi

Mənfəət vergisi xərci aşağıdakı komponentlərdən ibarətdir:

| **Maliyyə nəticələri haqqında hesabat** | 2021 | 2020 |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | 442 | 1 611 |
| Təxirə salınmış vergi xərci (xeyri) | - | - |
| **İl üzrə mənfəət vergisi xərci** | 442 | 1 611 |

## 19. Pay üzrə mənfəət

Pay üzrə əsas mənfəət, təsisçilərin payına düşən xalis gəlirin il ərzində verilməmiş payların nisbətinə bölünərək hesablanır.
Aşağıdakı cədvəl pay üzrə mənfəət haqqında məlumatı göstərir:

| | 2021 | 2020 |
|---|---|---|
| Pay sahiblərinə aid mənfəət | | |
| - Davam etməkdə olan əməliyyatlar | - | - |
| - Təxirə salınmış əməliyyatlar | - | - |
| **Əsas gəlir üçün təsisçilərin illik payına düşən xalis mənfəət** | - | - |

## 20. Maliyyə risklərinin idarə edilməsinin məqsədi

**İnstitut** daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

## 21. Hesabat tarixindən sonra baş vermiş hadisələr

Maliyyə hesabatlarına əhəmiyyətli təsir edəcək hadisələr baş verməmişdir .

"AZƏRBAYCAN METROLOGİYA İNSTİTUTU"
PUBLİK HÜQUQİ ŞƏXSİN baş direktorunun müavini - baş direktorun vəzifəsini müvəqqəti icra edən: Əliyev Rövşən Bafa oğlu

Baş mühasib: Məmmədova Naciyə Kamandar qızı